Xəzər Su İnnovasiya Forumu | Caspian Water Innovation Forum

**Hörmətli  AMCHAM üzvü!**

**30 may 2023-cü il** tarixində Baku Marriott Boulevard Hotelində “Aqualink” MMC-nin təşkilatçılığı, AR Ekologiya və Təbii Sərvətlər Nazirliyi,  “Azərsu” ASC  və  “Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC  şirkətlərinin dəstəyi və təşkilatçılığı, və “AO Smith”, “Nijhuis Saur İndustries”, “ARC Tecnology” şirkətlərinin baş sponsorluğu ilə **2-ci Xəzər Su İnnovasiya Forumu** keçiriləcəkdir.

**“Gələcək üçün su!”** şüarı ilə keçiriləcək bu ilki Forumda sudan səmərəli istifadə, su ehtiyatlarının effektiv idarəedilməsi və ətraf mühitin qorunması sahəsində fəaliyyət göstərən dünyanın **15** ölkəsindən **26** aparıcı şirkət, **300**-dən çox yerli və xarici şirkət nümayəndələrinin, o cümlədən **60**-dan beynəlxalq səviyyəli peşəkar mütəxəssislərin və aidiyyəti dövlət qurumları və şirkətlərinin iştirakı nəzərdə tutulmuşdur

Bu Forum regionda su ehtiyatlarının,  tullantı suların idarəedilməsində, təkrar emalında, ətraf-mühitə münasibətdə, ekoloji sistemə təsirlərin müəyyən edilməsində dünya təcrübəsini, yeni texnologiyaların nümayişi,  dövlət və özəl sektor yeniliklərini bir araya gətirən müzakirə və əməkdaşlığı təmin edəcək, eləcə də bu sahədə olan qabaqcıl və mütərəqqi texnologiyaların, o cümlədən beynəlxalq təcrübənin öyrənilməsi, tətbiqi, müvafiq sahə üzrə dövlət və özəl sektorun sıx əməkdaşlığının möhkəmləndirilməsi istiqamətində yaradılmış **müzakirə platforması** olacaqdır.

Tədbirdə panel formatında keçiriləcəkdir. **I panel**  “Su ehtiyatlarının və təsərrüfatının idarəedilməsi”, **II panel** “Tullantı suların idarəedilməsi, təkrar emalı və ətraf mühitə təsirləri”, **III panel** isə “İnnovasiya və səmərəli həllər, ölçü və nəzarət texnologiyaları” mövzularına həsr ediləcəkdir. Panellərdə yerli və xarici mütəxəssislərlə yanaşı aidiyyəti dövlət qurumlarının nümayəndələri ilə müzakirələr aparılacaqdır.

AMCHAM üzvləri Forumda iştirak üçün www.wif.az/bilet_al linki vasitəsilə  **WIF100 promo kodu** ilə qeydiyyatdan keçərək **ödənişsiz iştirak edə bilərlər**.

Xəzər Su İnnovasiya Forumuna siz də dəstək olun. Bu fürsəti əldə qaçırmayın! Bizi internet səhifəmizdən və sosial şəbəkə ünvanlarımızdan izləyin. Gəlin, gələcəyimiz üçün suyumuzu birlikdə qoruyaq!

**GƏLƏCƏK ÜÇÜN SU!**